

# Dəstəmaz necə alınır?

Dəstəmazın fərzlərini, sünnətlərini və dəstəmazla bağlı bəzi xüsusları öyrəndikdən sonra dəstəmazın alınma qaydasını ardıcıllıqla gözdən keçirək:

İlk öncə: "Niyyət etdim Allah rizası üçün dəstəmaz almağa," – deyərək niyyət edilir. Əsas məsələ qəlbən niyyət etməkdir. Dillə söyləmək şərt deyildir.



Niyyətdən sonra "Əuzu-bismillah" oxunur. Əllər biləklərə qədər yuyulur. Barmaqda üzük varsa, tərpədilir.



Sonra ağıza və buruna sağ əllə üç dəfə su alınır, burun sol əllə təmizlənir.



Daha sonra ovuclara su alınır və üzün hər tərəfi üç dəfə yuyulur.



Ardınca sağ qol dirsəklərlə birlikdə üç dəfə yuyulur.



Sonra sol qol dirsəklərlə birlikdə üç dəfə yuyulur.



Əllər isladılıb sağ əlin içi və barmaqlarla başın ən az dörddə bir hissəsi məsh edilir.





Baş məsh edildikdən sonra islaq əllərlə və ya əllər yenidən isladılaraq hər iki əlin şəhadət, ya da çeçələ barmaqları ilə qulaqların içi, baş barmaqla da çölü məsh edilir. Sonra da yaş əllərlə boyun məsh edilir.



Daha sonra əvvəlcə sağ ayaq, ardınca da sol ayaq topuqlarla birlikdə üç dəfə yaxşıca yuyulur. Ayaqlar yuyularkən ayaq barmaqlarının arasının və topuqların arxasının yuyulmasına xüsusi diqqət yetirilməlidir.

Bunların yerinə yetirilməsi ilə dəstəmaz tamamlanmış olur. Dəstəmaz alarkən zərurət olmadıqca danışmamaq daha məqbuldur. Dünya işlərindən danışmaqdansa, dua oxumaq, Allah Rəsuluna (s.ə.s.) salavat gətirmək daha gözəl davranışdır.